# Quba məzarlığı ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin tarixi təsdiqidir

## Yeni Azərbaycan Partiyası Xaçmaz rayon təşkilatının gənclər birliyinin üzvləri Quba məzarlığını ziyarət ediblər

***Dünən Yeni Azərbaycan Partiyası (YAP) Xaçmaz rayon təşkilatının gənclər birliyinin üzvləri 31 Mart Azərbaycanlıların Soyqırımı ilə bağlı Quba məzarlığını ziyarət ediblər. Tədbir iştirakçıları soyqırımı qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad edərək, məzarlığa tər qərənfillər düzüblər.***





Quba Soyqırımı Memorial Kompleksini ziyarət edən gənclərə qan yaddaşımızın ən ağrılı səhifələri soyqırımı, deportasiya, azərbaycanlıların tarixi torpaqlarından çıxarılması haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Qudyalçayın sağ sahilində tikinti ilə əlaqədar qazıntı işləri aparılan zaman kütləvi qətlləri təsdiq edən xeyli sayda insan sümükləri aşkar olunmuş və ilkin araşdırmalardan sonra bunların 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya basqını zamanı öldürülmüş yerli sakinlərə məxsus olduğu müəyyən edildi. Təhqiqat zamanı ərazidə sümüklə dolu iki quyu və iki arx müəyyən edilib. Kəllə sümüklərində aşkar olunan küt alət izləri onların zorakılıqla qətlə yetirildiyini təsdiq edir. Yerli sakinlər şəhərdən kənarda qətlə yetirildikdən sonra gələcəkdə daşqınlar zamanı izin itirilməsi məqsədi ilə meyitlər çay kənarına gətirilərək yamacda qazılmış bu quyulara doldurulub. Bu fakt 100 ilə yaxın bir dövrdə ermənilərin türklər tərəfindən soyqırımına məruz qaldığı barədə iddialarının yalan olduğunu birbaşa sübut edir.

Ziyarət zamanı bildirildi ki, ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş vandalizm aktlarına uzun müddət obyektiv qiymət vermək mümkün olmayıb. Yalnız Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra soyqırımı barədə həqiqətlərin beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü iş aparılmış, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla erməni millətçilərinin hərəkətlərinə hüquqi-siyasi qiymət verildi. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması uğrunda informasiya mübarizəsində hücum taktikası daha əzmlə davam etdirilməli, ermənilərin əsl simasının bütün xalqlara tanıdılması, bu soyqırımı hadisələrinə beynəlxalq ictimaiyyət tərəfindən hüquqi-siyasi qiymət verilməsi üçün ardıcıl iş aparılmalıdır. Tədbirdə mövzu ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

**Ü.ƏSGƏROV**